

«Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

2



«İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1949 nömrəli Fərmanında dəyişiklik edilib

2



Nazirlər Kabineti xüsusi karantin rejimi ilə bağlı qərarlar qəbul edib

3


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 23-24 (783) 30 dekabr 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## 2026-cı ildə Azərbaycanda yeni əczaçılıq zavodu işə salınacaq




5

## Milli Məclisdə tibbi tullantıların idarə olunması müzakirə edilib



2

## «Azərbaycanda sağlamlıq turizminin inkişaf perspektivləri»




4

## Səhiyyə Nazirliyi «Sağlam uşaq» internet portalı və mobil tətbiqini istifadəyə verib




8

## Qızılcaya yoluxmaya görə həssas hesab edilən 11-40 yaşlı şəxslərin peyvəndlənməsinə başlanılır




6

### *Aforizm*

*Bildiyim yeganə gözəllik sağlamlıqdır.*

*Henrix Heyne*



## «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə
### *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 16-4.4-1-ci və 16-4.5-ci maddələrində «2024-cü» sözləri «2025-ci» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

## «İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1949 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə
### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin gəlir və xərclərini dürüstləşdirmək məqsədilə **qərara alıram:**

«İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1949 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1459) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.1-ci bəndin «Məbləğ (manatla)» sütununda «2241239633,0» rəqəmləri «2301959633,0» rəqəmləri ilə əvəz edilsin.

**2.** 3.1.4-cü yarımbənd üzrə:

2.1. «Məbləğ (manatla)» sütununda «1803778570,0» rəqəmləri «1873778570,0» rəqəmləri ilə əvəz edilsin;

2.2. 1-ci abzasın «Məbləğ (manatla)» sütununda «1653778570,0» rəqəmləri «1625778570,0» rəqəmləri ilə əvəz edilsin;

2.3. 2-ci abzasın «Məbləğ (manatla)» sütununda «150000000,0» rəqəmləri «248000000,0» rəqəmləri ilə əvəz edilsin.

**3.** 3.1.6-cı yarımbənd üzrə:

3.1. «Məbləğ (manatla)» sütununda «174809683,0» rəqəmləri «165529683,0» rəqəmləri ilə əvəz edilsin;

3.2. 2-ci abzasın «Məbləğ (manatla)» sütununda «4000000,0» rəqəmləri «2720000,0» rəqəmləri ilə əvəz edilsin;

3.3. 3-cü abzasın «Məbləğ (manatla)» sütununda «50000000,0» rəqəmləri «30000000,0» rəqəmləri ilə əvəz edilsin;

3.4. 4-cü abzasın «Məbləğ (manatla)» sütununda «40000000,0» rəqəmləri «55000000,0» rəqəmləri ilə əvəz edilsin;

3.5. 7-ci abzasın «Məbləğ (manatla)» sütununda «10000000,0» rəqəmləri «7000000,0» rəqəmləri ilə əvəz edilsin.

**4.** 3.3-cü bəndin «Məbləğ (manatla)» sütununda «70000000,0» rəqəmləri «9280000,0» rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 3 may tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş «Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və Qaydası»nda, 2002-ci il 29 aprel tarixli 74 nömrəli Qərarı ilə təsdiq edilmiş «Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə»də və 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş «Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası»nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

«Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 1998-ci il 13 mart tarixli 684 nömrəli, «Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 6 mart tarixli 297 nömrəli, «Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 17 iyun tarixli 353 nömrəli, «Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 15 iyul tarixli 367 nömrəli, «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2001-ci il 19 iyul tarixli 540 nömrəli, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2002-ci il 6 may tarixli 697 nömrəli və «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2004-cü il 12 fevral tarixli 32 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2226 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 3 may tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş «Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və Qaydası»nın 1-ci hissəsində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin» sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 aprel tarixli 74 nömrəli Qərarı ilə təsdiq edilmiş «Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci (hər iki halda), 2.3-cü və 2.4-cü bəndlərdə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarətmə Birliyi» sözləri ilə əvəz edilsin;

2.2. 3.8-ci bənddə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə» sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş «Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası»nın 2.2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü abzas üzrə:

3.1.1. birinci cümlədə «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisəsi tərəfindən dərhal İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, digər tibb müəssisəsi tərəfindən isə» sözləri «tibb müəssisəsi tərəfindən dərhal» sözləri ilə əvəz edilsin;

3.1.2. ikinci cümlədən «və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri çıxarılsın;

3.2. dördüncü abzasdan «və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə» və «və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin» sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 20 dekabr 2023-cü il*

## Milli Məclisdə tibbi tullantıların idarə olunması müzakirə edilib

**Parlamentin Səhiyyə komitəsində «Tibbi tullantıların idarə olunması: mövcud vəziyyət, problemlər və onların həlli yolları» mövzusunda ictimai dinləmə keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri açan komitə sədri **Əhliman Əmiraslanov** bildirib ki, tibbi tullantılar problemi hər bir cəmiyyəti narahat edən ciddi məsələdir. Bu tullantıların idarə olunmasının, utilizasiyasının düzgün həyata keçirilməməsi ətraf mühitə və insanların sağlamlığına ciddi ziyan vurur və xüsusən də epidemioloji baxımdan böyük təhlükə yaradır. Əhliman Əmiraslanov bu sahədə müəyyən problemlərin mövcudluğunu, xüsusən bölgələrdə vəziyyətin qənaətbəxş olmadığını qeyd edib. O, tibbi tullantıların hərəkəti ilə bağlı müəyyən məsələlərin həllinin, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsinin aktuallığı ilə bağlı fikirlərini bölüşüb.

Sonra komitə üzvü **Soltan Məmmədov** «Tibbi tullantıların idarə olunması: mövcud vəziyyət, problemlər və onların həlli yolları» mövzusunda məruzə ilə çıxış edib. O, tibbi tullantıların idarə olunması sahəsində aparılan monitorinqlərdən bəhs edərək bildirib ki, müalicə-profilaktika müəssisələrində və tibbi xidmət göstərən sahibkarlıq subyektlərində formalaşan tibbi tullantıların hərəkəti, zərərsizləşdirilməsi işləri müasir dövrün tələblərinə cavab vermir.

Soltan Məmmədov vurğulayıb ki, Azərbaycanda tibbi tullantıların idarə olunması sahəsində yeni və müasir yanaşmaların tətbiqinə, prosesin idarə olunmasının və nəzarət mexanizminin təkmilləşdirilməsinə, qurumlar arasında fəaliyyətin koordinasiyasının təmininə, vəzifə, öhdəlik və səlahiyyətlərin daha dəqiq müəyyən olunmasına ehtiyac var.

*(Ardı səhifə 3-də)*

# Nazirlər Kabineti xüsusi karantin rejimi ilə bağlı qərarlar qəbul edib

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb.**



Bu barədə Baş nazir Əli Əsədovun imzaladığı Qərarda deyilir ki, «Sanitariya-epidemioloji salamatlıq haqqında» Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş «Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları»na əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 aprel saat 06:00-dək uzadılıb.

Bununla əlaqədar olaraq, «Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının 1.1-ci bəndində «yanvar» sözü «aprel» sözü ilə əvəz edilib.

Nazirlər Kabinetinin qəbul etdiyi digər bir qərar «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqındadır. Belə ki, həmin sənədin 2-ci hissəsində «yanvarın» sözü «aprelin» sözü ilə əvəz edilib. Bununla da adı çəkilən tibb işçiləri əməkhaqlarına müddətli əlavəni həmin müddətədək ala biləcəklər.

*(Əvvəli səhifə 2-də)*

# Milli Məclisdə tibbi tullantıların idarə olunması müzakirə edilib



AZƏRTAC-ın verdiyi xəbərə görə, məruzədə bildirilib ki, zərərsizləşdirmə müəssisələrinin sağlam rəqabət mühitində sayının artırılması, sahibkarlara bu sahəyə investisiya qoyduqları təqdirdə işin davamlılığına dəstək, tibbi personalın bilik və bacarıqlarının yüksəlməsi məsələsi diqqət mərkəzində olmalıdır.

Komitə üzvü bildirib ki, tibbi tullantılar yalnız tibb müəssisələrində formalaşmır, həmçinin, stomatoloji kabinetlər, gözəllik mərkəzləri, akupunktura, qocalar evləri, körpələr evləri, apteklər, morqlar, zooparklar, baytarlıq poliklinikaları və laboratoriyaları kimi müəssisələrdə hasil olur. «Tibbi tullantılar vasitəsilə bir çox təhlükəli infeksiyalar, məsələn, vərəm, pnevmoniya, meningit, İİV, hepatit və digər xəstəliklərin yayılması mümkündür. Həmçinin düzgün zərərsizləşdirilmədən ətraf mühitə atılan tibbi tullantılar yeraltı su mənbələrinin çirklənməsi ilə nəticələnməklə infeksion xəstəliklərin artmasına, gələcək nəsillərdə genetik zədələnmələrə və digər problemlərə gətirib çıxara bilər. Buna görə də tibbi tullantılar, əhalinin sağlamlığının qorunması və ətraf mühitin mühafizəsi üçün hasil olduqları andan məhv edilənə qədər təhlükəsiz idarəetmə sistemi tələb edir», — deyə Soltan Məmmədov qeyd edib.

Sonra **səhiyyə nazirinin müavini Nadir Zeynalov** mövzu ilə bağlı qlobal yanaşma və trendlərə toxunub, Azərbaycanda tibbi tullantıların idarə olunması sahəsində mövcud olan çatışmazlıqlar, qarşıya çıxan problemlərdən söz açıb. Nazir müavini bu problemlərin aradan qaldırılması üçün görülən işlərdən, tibbi tullantıların idarə olunması ilə bağlı hazırlanan yeni tələblər layihəsindən danışıb.

Səhiyyə nazirinin müavini qeyd edib ki, tibbin sürətli inkişafı, texnoloji inkişaf, yer üzərində əhalinin tibbi xidmətə əlçatanlığının artması, müvafiq olaraq, əmələ gələn tibbi tullantıların da artmasına gətirib çıxarır. Bu, beynəlxalq tibbi qurumların tibbi tullantılar məsələsini prioritet problemlərin sırasına daxil etməsinə səbəb olub. Bu, bizim ölkəmizdə də belədir. COVID-19 pandemiyası ilə bağlı olaraq tibbi tullantılar problemi daha da aktuallaşıb.

Nadir Zeynalov bildirib ki, təhlükəli və təhlükəsiz tullantıların idarə edilməsi, zərərsizləşdirilməsi və utilizasiyası iqtisadi baxımdan fərqli məsrəf tələb edir. Məsrəf artıq olmasın deyə, iqtisadi səmərəlilik baxımından tibbi tullantıların hamısının birlikdə deyil, çeşidlənmiş şəkildə idarə olunması tətbiq olunmalıdır.

Nazir müavini vurğulayıb ki, tibbi tullantıların əsas təhlükəsi mikrobioloji tərkibinə görədir: «Bizim ölkəmizdə tibbi tullantıların idarə olunması ilə bağlı problemlər mövcuddur. Bu problemlərin araşdırılması və vəziyyətin yaxşılaşdırılması istiqamətində təkliflərin verilməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Səhiyyə Nazirliyinin birgə təşəbbüsü ilə işçi qrup yaradılıb».

Səhiyyə nazirinin müavini söyləyib ki, tibbi tullantıların idarə edilməsi ilə bağlı təlimlərin keçirilməsi tibb müəssisəsinin rəhbərinin üzərində olan bir məsuliyyətdir. Bu, normativ hüquqi sənəddə əks olunub: «Səhiyyə Nazirliyi təlimlərin daha geniş və əhatəli keçirilməsi ilə bağlı tədbirlər görür. Sertifikatlaşdırılmış treninqlərin təşkil olunub həyata keçirilməsi üçün metodoloji çərçivə hazırlanır».

Təhlükəli tibbi tullantıların təkrar istifadə imkanlarının məhdud olduğunu deyən Nadir Zeynalov bildirib ki, bəzi yeni, müasir, ultrayüksək tezlikli cihazlar tibbi tullantıları daşa, çınqıla bənzər formaya gətirir. O zaman həmin qalıqdan yol tikintisi, binaların inşası zamanı istifadə etmək mümkündür. Nazir müavini qeyd edib ki, tibbi tullantıların idarə olunması ilə bağlı hazırlanan yeni tələblərin layihəsində mümkün olan təkrar istifadə məsələsi də nəzərə alınıb.

Dinləmədə **ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev** hökumətin ölkəmizdə tibbi tullantıların keyfiyyətli idarə olunması sisteminin qurulmasında maraqlı olduğunu diqqətə çatdırıb. Nazir müavini tibbi tullantıların idarə edilməsi sahəsində mövcud problemlərin effektiv həlli üçün koordinasiyalı fəaliyyətin təmin edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Səhiyyə Nazirliyinin birgə əmri ilə işçi qrupun yaradılması barədə məlumat verib. O bildirib ki, işçi qrupun yaradılmasında məqsəd tibbi tullantıların idarə olunması sahəsində mövcud vəziyyətin daha ətraflı öyrənilməsi, bu sahədə problemlərin aradan qaldırılması, zəruri tədbirlərin və təkliflərin hazırlanmasıdır.

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev** mövzu ilə bağlı mövcud qanunvericilik bazasının bugünkü tələblərə və beynəlxalq standartlara uyğunluğu ilə bağlı fikirlərini bölüşüb. Komitə sədri bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinin və beynəlxalq standartların qanunvericilikdə təsbitinin vacibliyindən danışıb.

**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov** tibbi tullantıların ekologiya və ətraf mühit üçün yaratdığı ciddi fəsadlardan söz açıb. O bildirib ki, insanlarla yanaşı, bitki və heyvanlar üçün də çox zərərli olan tibbi tullantılar təhlükəli, hətta ölümcül xəstəliklər ötürür. Elə tibbi tullantılar var ki, lazımi şəkildə utilizasiya olunmadıqda illərlə çürümür və torpağa, su hövzələrinə qarışaraq ağır yoluxucu xəstəliklər yayır. Sadiq Qurbanov qeyd edib ki, tibbi tullantılar çirklənmiş materiallardır: «İnsan və ya heyvanların hissələri, bədən mayeləri də daxil olmaqla virus və bakteriyalarla dolu bu materiallar həm ətraf mühit, həm də insan sağlamlığı üçün təhlükə mənbəyidir. Bu tullantılara açıq əllə toxunmaq olmaz. Onlar adi məişət tullantıları qutusuna atılmamalıdır. Ev şəraitində də tibbi tullantılar varsa, yaxınlıqdakı tibb müəssisələrinə təhvil verilməlidir». Komitə sədri tibbi tullantıların idarə olunması ilə bağlı təkliflərini səsləndirib.

Dinləmədə Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitənin üzvləri Məlahət İbrahimqızı, Kamilə Əliyeva, İlham Məmmədov, Müşfiq Məmmədli, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov, Bakı Baş Səhiyyə Mərkəzinin İlkin səhiyyə xidmətinin inkişafı departamentinin rəhbəri Gülnarə Yusifova, Mərkəzi Klinik Xəstəxananın baş həkimi Kamran Musayev, «Yeni Klinika» publik hüquqi şəxsin (PHŞ) direktoru Barat Yusubov, «Abşeron Rayon Mərkəzi Xəstəxanası» PHŞ-nin direktoru Azər İsmayılov, Dövlət Gömrük Komitəsi Tibb xidməti idarəsinin rəis müavini İsmayıl Əfəndiyev və Azərbaycan Tibb Universitetinin kafedra müdiri Fəridə Əli çıxışlarında tibbi tullantıların toplanması, çeşidlənməsi, saxlanması, emalı, zərərsizləşdirilməsi və kənarlaşdırılması mexanizmləri ilə bağlı fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

Milli Məclisin Səhiyyə komitəsinin üzvü **Soltan Məmmədov** və səhiyyə nazirinin müavini **Nadir Zeynalov** dinləmədə qaldırılan məsələlərə münasibətlərini bildiriblər, səsləndirilən sualları cavablandırıblar.

Dinləməyə yekun vuran Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov tədbir iştirakçılarına təşəkkür edib.

Dinləmədə deputatlar, müvafiq dövlət strukturlarının, aparıcı institutların, tibb müəssisələrinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

# Səhiyyə Nazirliyinin rəhbər şəxsləri Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad ediblər

**Müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günündə Səhiyyə Nazirliyinin rəhbər şəxsləri Fəxri xiyabanda olublar.**



Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, Ümummilli Liderin vəfatının 20-ci ildönümü ilə əlaqədar olaraq Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi hörmət və ehtiramla anılıb, məzarı önünə gül dəstələri qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə elan edilmiş «Heydər Əliyev İli» çərçivəsində Səhiyyə Nazirliyi və nazirliyin tabeliyində olan qurumlar tərəfindən Bakı şəhərində və ölkənin müxtəlif bölgələrində tədbirlər və beynəlxalq elmi-praktik konfranslar keçirilib.

**Bakıda Ümummilli Lider Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilən Azərbaycan - Türkiyə İnvestisiya Forumu keçirilib.**

# «Azərbaycanda sağlamlıq turizminin inkişaf perspektivləri»

## *Səhiyyə naziri Azərbaycan - Türkiyə İnvestisiya Forumunun bu adda panel sessiyasında çıxış edib*




Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Türkiyə Respublikası Ticarət Nazirliyi, Türkiyə Respublikası Prezidentinin Maliyyə ofisinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi — AZPROMO və Türkiyə - Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) birgə təşkilatçılığı ilə baş tutan forum çərçivəsində müxtəlif mövzuları əhatə edən, o cümlədən Azərbaycanda investisiya qoyuluşu imkanları, ticarət dövriyyəsinin artırılmasında nəqliyyat və logistika mərkəzlərinin rolu, kənd təsərrüfatı və qida sənayesi, «yaşıl» enerji, müdafiə sənayesi və sağlamlıq turizmi üzrə panel sessiyalar keçirilib.

**Türkiyə səhiyyə nazirinin müavini Şuayip Birinci**nin moderatorluğu ilə «Azərbaycanda sağlamlıq turizminin inkişaf perspektivləri» mövzusunda panel sessiyasında **Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev** çıxış edərək vurğulayıb ki, iki qardaş dövlətin prezidentlərinin rəhbərliyi altında ölkələrimiz arasında strateji əlaqələr dinamik inkişaf edir və müxtəlif sektorlar üzrə birgə tədbirlərin təşkili ənənə halını alır.

Nazir son illərdə qlobal səviyyədə sağlamlıq turizmi və tibbi turizmin rolunun artdığını qeyd edib: «Tibbi xidmətlərin keyfiyyətinin artması, ölkələrin tibbin ayrı-ayrı istiqamətləri üzrə ixtisaslaşması, səfər və müalicə xərclərinin dövlət və özəl sığorta sistemləri hesabına qarşılanması, sərhədlərarası tibbi xidmətlərin göstərilməsinə imkan yaradan qanunvericiliyin qəbulu və digər faktorlar bu sahədə inkişafa təkan verir. Sağlamlıq turizmi sektoruna yatırılan investisiyalar, tibb sektorunda baş verən texnoloji inkişaf, insanların istirahətə və sağlamlığa əvvəlkindən daha çox diqqət ayırması sektorun inkişafında dəstəkləyici rol oynayır». O vurğulayıb ki, bugünkü demoqrafik göstəricilər gələcək illərdə sağlamlıq turizminə ehtiyacın kəskin şəkildə artacağını göstərir.

Teymur Musayevin sözlərinə görə, sağlamlıq turizminin coğrafiyasında da dəyişikliklər baş verməkdədir: «Əvvəlki dövrlərdə bu xidmətlərdən faydalanmaq üçün insanlar inkişaf etmiş ölkələrə üz tuturdularsa, indi biz bunun əksini müşahidə edirik. Bunun iqtisadi izahı ilə yanaşı, marketinq və insanların məlumatlılıq səviyyəsinin artması, tibbi və logistik xidmətlərin inkişafı, işçi qüvvəsinin peşəkar hazırlığı və bir sıra digər səbəbləri var. Göründüyü kimi, sağlamlıq və tibbi turizmin inkişafı məsələlərə kompleks yanaşmanı tələb edir».

Səhiyyə naziri bildirib ki, Türk dünyası böyük bir coğrafiyanı əhatə edir, zəngin yeraltı ehtiyatlara, əlverişli iqlimə və turizm rekreasiya potensialına malikdir. Eyni zamanda, 170 milyona yaxın əhalisi və 560 milyard dollarlıq xarici ticarət dövriyyəsi Türk Dövlətləri Təşkilatına üzv ölkələrdə sağlamlıq turizminin inkişafına böyük imkanlar yaradır.

«Son illərdə müasir tibbi infrastrukturun qurulması, ən son texnoloji avadanlıqların tətbiqi və ixtisaslı insan resursları sayəsində Türkiyə Respublikası sağlamlıq və tibbi turizm üzrə beynəlxalq mərkəzə çevrilib. Sağlamlıq və tibbi turizmin müxtəlif sahələrinin — artıq çəki ilə mübarizə, özünə baxım, estetik tibb və cərrahiyyə, stomatologiya, neyrocərrahiyyə, onkologiya ixtisaslarının inkişafı xarici turistlər üçün Türkiyəni cəlbedici məkan kimi ön sıralara çıxarır. Qardaş ölkədə tibbin inkişafı Azərbaycan səhiyyəsinə də müsbət təsirini göstərir. Türkiyədə tibb təhsilini tamamlamış həkimlərimiz Vətənə dönərək müxtəlif tibb müəssisələrində milli səhiyyənin inkişafına dəyərli töhfələr verirlər», — deyə səhiyyə naziri bildirib.

Teymur Musayev xatırladıb ki, dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nda turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institusional və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi əsas fəaliyyət istiqamətlərindən biri olaraq müəyyən edilib: «Azərbaycanın kurort ehtiyatları beş zonaya bölünür: Böyük Qafqaz zonası, Kiçik Qafqaz, Xəzər dənizinin sahil zonası, Naxçıvan Muxtar Respublikası və Kür - Araz çökəkliyi. Həmin zonaların hər biri unikal təbii müalicə ehtiyatlarına, o cümlədən balneoloji, iqlim, palçıq kurortlarına, eləcə də Naftalan neft kurortuna malikdir. Böyük Qafqaz zonasında Qalaaltı kurortu, Naxçıvanda Sirab, Badamlı, Vayxır, Darıdağ kurortları, Duzdağ mağarası, Kür - Araz çökəkliyində yerləşən balneoloji kurortlar müalicəvi əhəmiyyət daşıyır».

Səhiyyə naziri söyləyib ki, sağlamlıq turizminin inkişafı kompleks tədbirlərdən asılı olduğuna görə, Səhiyyə Nazirliyi tərəfindən bu sahədəki aidiyyəti dövlət qurumları ilə fəal iş aparılır. Dövlət Turizm Agentliyi ilə birlikdə Naftalan neftinin sağlamlıq turizminin inkişafında rolunun artırılması ilə bağlı layihə üzərində işlər davam etdirilir.

Sağlamlıq turizminin turizm sektorunun ən sürətlə inkişaf edən formalarından biri olduğunu deyən Teymur Musayev ölkəmizdə bu sahənin daha bir inkişaf istiqaməti barədə də danışıb: «Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz 44 günlük Vətən müharibəsində 30 il həsrətində olduğumuz tarixi torpaqlarımızı işğaldan azad etdi. Hazırda həmin ərazilərdə aparılan bərpa-quruculuq işlərində turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. İşğaldan azad olunmuş ərazilər sağlamlıq turizminin, ekoturizmin inkişafında böyük potensiala malikdir», — deyə Azərbaycanın səhiyyə naziri vurğulayıb.

«Təbii ehtiyatlar, iqlim şəraiti, tarixi irs həmin ərazilərdə sağlamlıq turizminin inkişafı üçün unikal imkanlar yaradır. İnanıram ki, bu bölgənin turizm potensialı gələcəkdə ölkə iqtisadiyyatının inkişafına da öz töhfələrini verəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkənin əsas turizm zonasına çevriləcək».

Səhiyyə naziri söyləyib ki, sağlamlıq turizminin inkişafı kompleks tədbirlərdən asılı olduğuna görə, Səhiyyə Nazirliyi tərəfindən bu sahədəki aidiyyəti dövlət qurumları ilə fəal iş aparılır. Dövlət Turizm Agentliyi ilə birlikdə Naftalan neftinin sağlamlıq turizminin inkişafında rolunun artırılması ilə bağlı layihə üzərində işlər davam etdirilir.

*(Ardı səhifə 5-də)*

# 2026-cı ildə Azərbaycanda yeni əczaçılıq zavodu işə salınacaq

**Pirallahı Sənaye Parkında «Gen Pharma Caucasus Manufacturing Operations» MMC-nin dərman vasitələrinin istehsalı müəssisəsinin təməlqoyma mərasimi keçirilib. Müəssisə 2026-cı ildə işə salınacaq.**

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov iştirak edib.

«Gen Pharma Caucasus Manufacturing Operations» MMC Azərbaycan İnvestisiya Şirkəti (29% pay), Türkiyənin «GEN İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş» şirkəti (66%) və «SİA Pharmaceutical» MMC (5%) tərəfindən yaradılmış birgə müəssisədir.

Müəssisədə Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi ilə 42 adda yüksək keyfiyyətli müxtəlif doza və qablaşdırmada dərman məhsulları istehsal olunacaq.



İnşa ediləcək zavodun investisiya dəyəri 59,3 milyon manatdır ki, bunun da 34%-ni özəl investisiyalar, 66%-ni isə kredit vəsaitləri təşkil edir. Tikinti işlərinin birinci mərhələsində zavodun sahəsi 5,1 ha təşkil edəcək, ikinci mərhələdə isə daha 2,7 ha artırılacaq.

Müəssisədə 165 nəfər daimi işlə təmin ediləcək. Zavodun fəaliyyətə başlamasından sonra ölkədə bir sıra əczaçılıq məhsullarına tələbat yerli istehsal hesabına ödəniləcək, idxaldan asılılıq azaldılacaq. Zavodda istehsal edilən məhsulların MDB ölkələrinə də ixracı planlaşdırılır.

Müəssisənin illik istehsal gücü 50 milyon qutudur.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, müəssisənin tikintisinin 2025-ci ildə başa çatdırılması və 2026-cı ildə işə salınması planlaşdırılır.

*(Əvvəli səhifə 4-də)*

# «Azərbaycanda sağlamlıq turizminin inkişaf perspektivləri»

Sağlamlıq turizminin turizm sektorunun ən sürətlə inkişaf edən formalarından biri olduğunu deyən Teymur Musayev ölkəmizdə bu sahənin daha bir inkişaf istiqaməti barədə də danışıb: «Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz 44 günlük Vətən müharibəsində 30 il həsrətində olduğumuz tarixi torpaqlarımızı işğaldan azad etdi. Hazırda həmin ərazilərdə aparılan bərpa-quruculuq işlərində turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. İşğaldan azad olunmuş ərazilər sağlamlıq turizminin, ekoturizmin inkişafında böyük potensiala malikdir», — deyə Azərbaycanın səhiyyə naziri vurğulayıb.

«Təbii ehtiyatlar, iqlim şəraiti, tarixi irs həmin ərazilərdə sağlamlıq turizminin inkişafı üçün unikal imkanlar yaradır. İnanıram ki, bu bölgənin turizm potensialı gələcəkdə ölkə iqtisadiyyatının inkişafına da öz töhfələrini verəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkənin əsas turizm zonasına çevriləcək».

Çıxışının sonunda Teymur Musayev forumun sektorun gələcək inkişafı baxımından faydalı olacağına ümidvar olduğunu bildirib.

Panel iclasında çıxışı zamanı **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev** deyib ki, Azərbaycanın qanunvericiliyinə görə, icbari tibbi sığorta yalnız Azərbaycan vətəndaşları və ölkəmizdə oturum izni olan əcnəbilərə aiddir. Əgər ölkəyə turist gələrsə və tibbi ehtiyacı yaranarsa, onun beynəlxalq sığortası varsa, bu istiqamətdə ehtiyacı qarşılana bilər və ya nağd pul ödəməlidir ki, həmin xidmətdən yararlana bilsin: «Ən vacib məsələlərdən biri odur ki, əgər ölkəyə kimsə gəlirsə və onun səyahət sığortası varsa, tibbi ehtiyac yaranarsa, o zaman həmin ehtiyacı səyahət sığortasının assistent şirkətləri vasitəsilə ala bilər. TƏBİB-in bu işlə məşğul olan komandası dünyadakı böyük assistent şirkətləri ilə danışıqlara başlayıb. Danışıqların məqsədi siyahıya Azərbaycan klinikalarının salınmasıdır».

Zaur Əliyev qeyd edib ki, hələ ki, TƏBİB-in nəzdində fəaliyyət göstərən Yeni Klinika üzərindən danışıqlar gedir: «Əgər turistin səyahət sığortası varsa, onun tibbi ehtiyacı yaranacağı təqdirdə assistent şirkətlə əlaqə saxlayarkən o, Yeni Klinikaya yönləndiriləcək. Hələlik bir klinikadır, lakin daha çox tibb müəssisəsinin olması daha məqsədəuyğundur».

Qurum rəhbəri həmçinin bildirib ki, Azərbaycana gələn turistlərin paket şəklində həm sağlamlıq xidmətləri alması, həm də turistik yerlərimizi ziyarət etməsi üçün TƏBİB-in nümayəndələri ölkəmizdəki turizm şirkətləri və assosiasiyaları ilə görüş keçirir. Bu, paket şəklinə salınarsa, ölkəmizə turist cəlb edilməsinə töhfə vermiş olacaq: «Gələcəkdə Türkiyə ilə qarşılıqlı sığortanın tanınmasına nail olmaq istəyirik. Belə ki, Türkiyənin Sosial Güvənlik Qurumu ilə imzalanan Anlaşma memorandumunda qarşılıqlı sığortanın tanınması komponenti var. Bu istiqamətdə razılığa gəlinsə və sığortaları qarşılıqlı tanısaq, bu da turistlərin ölkəmizə gəlməsinə əlavə təkan olacaq».

Tədbirdə **Azərbaycan Turizm Bürosunun İdarə Heyətinin sədrinin müavini Rəşad Əliyev** sağlamlıq turizmi ilə bağlı statistik rəqəmləri səsləndirib, bildirib ki, sağlamlıq turizmində olan maliyyə dövriyyəsi 2016-cı ildə 25 milyard dollardan 2020-ci ildə 55 milyard dollara yüksəlib. Proqnozlara görə, həmin rəqəm 2027-ci ildə 208 milyard dollara çatacaq: «Həmin rəqəmlər bizə bu sahədə böyük potensial olduğunu göstərir. Həm Azərbaycan, həm də Türkiyə həmin potensialdan yaxşı istifadə edə bilər».

R.Əliyev məlumat verib ki, Naftalan neftinin sertifikatlaşdırılması üzərində iş aparılır. Onun sözlərinə görə, hazırda həm Səhiyyə Nazirliyi, həm də Almaniyanın Sağlamlıq Turizmi Assosiasiyası ilə birlikdə Naftalan neftinin sertifikatlaşdırılması prosesi üzərində iş gedir, fəaliyyət planı hazırlanır. Bu, çox geniş bir prosesdir. Sertifikatlaşdırmanın əsas hissəsi SOCAR-dan başlayacaq. «Sağlamlıq turizmi dedikdə ilk ağıla gələn yerlərdən biri Naftalan şəhəridir. Orada Naftalan nefti vasitəsilə müəyyən prosedurlar həyata keçirilir. Naftalan Şəhər İcra Hakimiyyəti ilə birlikdə Naftalanın turizm inkişaf konsepsiyasını hazırladıq. Həmin konsepsiyanın ana xətti sağlamlıq turizminin özüdür. Bu sahədə ən mötəbər layihə Naftalan neftinin sağlamlıq turizminin inkişafındakı rolunun artırılması üzrə əlavə tədbirlər planı ilə bağlı layihədir. Yekunlaşması üzrə olan həmin layihə çərçivəsində Naftalan neftinə ümumi strateji yanaşma gətiriləcək. Layihə təsdiqləndikdən sonra Naftalan neftinin beynəlxalq sertifikatlaşdırma prosesinə başlanılacaq. Azərbaycanda sağlamlıq turizmi ilə bağlı Naftalana gələn turistlərin böyük qismi MDB ölkələrinin payına düşür. Dövlət Turizm Agentliyi xarici ölkələrdə keçirilən sərgilərdə, tədbirlərdə Azərbaycanın turizm potensialını təqdim edir. Lakin Qərb ölkələrindən turistləri Naftalana cəlb etməkdə qarşımızda duran baryerlərdən biri Naftalan neftinin beynəlxalq müstəvidə sertifikatının olmamasıdır. Sertifikatlaşdırma bitəndən sonra Naftalana böyük turist axınının olacağını düşünürük».

Rəşad Əliyev həmçinin qeyd edib ki, Kəlbəcərdə 5 turizm rekreasiya zonası yaradılacaq. Bunlardan 2-si — İstisu və Zülfüqarlı turizm rekreasiya zonaları sırf sağlamlıq turizmi baxımından ixtisaslaşmış zonalar olacaq. Bundan əlavə, İstisu və Zülfüqarlıda gələcəkdə investisiya potensialı da olacaq.

Azərbaycan Turizm Bürosunun İdarə Heyətinin sədr müavini onu da vurğulayıb ki, azad edilmiş ərazilərdə sağlamlıq turizminin potensialı çox böyükdür: «Gələn il Qarabağda sağlamlıq turizmi ilə bağlı beynəlxalq elmi-praktik konfrans keçiriləcək. Tədbirə beynəlxalq ekspertlər cəlb olunacaq və dünya təcrübəsinin yiyələnmək üçün müzakirələr aparılacaq».

Azərbaycan - Türkiyə İnvestisiya Forumunun «Azərbaycanda sağlamlıq turizminin inkişaf perspektivləri» mövzusunda panel sessiyasında həmçinin Türkiyə Respublikası səhiyyə nazirinin müavini Şuayip Birincinin, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini İlqar Qasımovun və digərlərinin çıxışları dinlənilib. Azərbaycan Sağlamlıq və Termal Turizminə Dəstək Assosiasiyasının prezidenti Ruslan Quliyev, Türk Hava Yollarının Baş direktor müavini Ahmet Olmuştur, «Asfarma» şirkətinin direktoru Ender Kavuk və digərləri müzakirələrdə iştirak edib, sualları cavablandırıblar.

Bildirilib ki, sağlamlıq turizmi dünyada son illərdə sürətlə inkişaf etməklə önəmli turizm növünə çevrilib. Ölkəmizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə müalicə-sağlamlıq turizminin yaradılması və inkişafı üçün resurslar böyükdür. Azərbaycan Respublikası Prezidentinin sağlamlıq turizminə verdiyi önəm sayəsində son illər müasir standartlara uyğun yeni müalicə kompleksləri yaradılıb, mövcud turizm infrastrukturu yenilənib və əsaslı təmir olunub. Bu istiqamətdə görülən tədbirlər ölkəmizin sağlamlıq turizmi sahəsində perspektivlərinin nümayiş etdirilməsi, həmçinin ölkəyə yeni keyfiyyətdə turist axınına nail olunması ilə yanaşı, bu sahəyə xarici və daxili investisiyaların cəlb edilməsinə hesablanıb.

Tədbirdə ölkəmizdə sağlamlıq turizminin inkişafı, turizm və səhiyyə sektoruna investisiya imkanları, bu sahədə Türkiyə təcrübəsinin tətbiqi barədə müzakirələr aparılıb.

# Tibbi tullantıların idarə olunmasında koordinasiyalı fəaliyyət çox vacibdir

**Səhiyyə Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə tibbi tullantıların düzgün idarə olunmasına dair tibb işçiləri üçün maarifləndirici tədbir keçirilib.**




Bakı Sağlamlıq Mərkəzində təşkil olunan tədbirdə tibbi tullantıların düzgün idarə olunması, o cümlədən çeşidlənməsi, müvəqqəti saxlanması, uçotunun aparılması məsələləri müzakirə olunub.

Toplantıda çıxış edən **səhiyyə nazirinin müavini Nadir Zeynalov** bildirib ki, tibbi tullantıların törətdiyi əsas təhlükə bioloji təhlükədir. Belə ki, tibbi tullantıların içində xəstə insanların bədənindən xaric olan mikroblar, viruslar həm tibb işçilərinə, həm tullantılarla məşğul olan əməkdaşlara, həm də sadə insanlara təsir edə bilər. Onlarda patogen mikroblar olduğuna görə xəstəlik törədə bilər. Tibbi tullantıların içərisində, az miqdarda olsa belə, zərərli kimyəvi maddələr ola bilər. Laboratoriyada istifadə olunan reaktivlər, müddəti keçmiş dərmanlar, digər təhlükəli kimyəvi tərkibli maddələr ola bilər. Onlara da kimsə toxunarsa, buxarları ilə nəfəs alınarsa, ziyan törədə bilər. Az rast gəlinən, lakin istisna edilməyən tullantının təhlükəli komponenti radioaktiv maddələrdir. Bəzi xəstələrin müalicəsində, diaqnostikasında radioizotoplardan istifadə olunur. Onlar da tullantı kimi xaric ediləndə təhlükə törədə bilər.

Səhiyyə nazirinin müavini bildirib ki, tibbi tullantıların idarə olunmasına diqqət COVID-in tüğyan etdiyi dövrlərdə daha da qabarıb. COVID-li xəstələrdən əmələ gələn materialları necə utilizasiya etmək məsələsi ortaya çıxıb.

Nadir Zeynalov deyib ki, tibbi tullantıların idarə edilməsi işlərini əsas iki nazirlik aparır. Bunlar Ekologiya və Təbii Sərvətlər və Səhiyyə nazirlikləridir. Bu səbəbdən iki nazirliyin təşəbbüsü ilə birgə işçi qrup yaradılıb: «Hər iki nazirin əmri ilə bu ilin mayında işçi qrup yaradıldı. Bu qrupun tərkibində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, TƏBİB-in, İqtisadiyyat Nazirliyinin, «Təmiz Şəhər» ASC-nin nümayəndələri də yer alıb. Fəaliyyətimizə tibb müəssisələrində cari vəziyyətlə bağlı məlumatların toplanması məqsədilə monitorinqlərlə başladıq. Bakı Sağlamlıq Mərkəzi monitorinqlərin keçirildiyi ilk tibb müəssisələrindən biri idi. Monitorinqlərin birinci mərhələsi bitib, ikinci mərhələsi gedir və digər tibb müəssisələrinə baxış keçirilir. Məlumatlar toplanılır, təhlil edilir, zəif yerlərimiz müəyyən olunur. Son nəticədə müəyyən təkliflər irəli sürüləcək. Bunların içində qanunvericiliklə bağlı təkliflər də var. Belə ki, normativ hüquqi aktların təkmilləşdirilməsinə zərurət yaranıb.

Digər vəzifəmiz maarifləndirmədir. Bir çox hallarda tibbi tullantıların çeşidlənməsi düzgün aparılmır. Tibbi tullantılar siniflərə bölünür. Burada əsas məqsəd insanların az zərər görməsidir. Əgər tibbi tullantı təhlükəsizdirsə, ona daha sadə, təhlükəlidirsə, daha ciddi yanaşmaq lazımdır. Elə etmək lazımdır ki, tullantıların aparılmasının digər mərhələsində insanlar bundan ziyan görməsin. Düzgün çeşidlənməni ilk olaraq tibb işçiləri bilməlidir. Bir çox müəssisədə tibb işçiləri ya bu barədə məlumatlı deyillər, ya da yanlış məlumatlara malikdirlər. Odur ki, onların maarifləndirilməsi vacibdir», - deyə Nadir Zeynalov bildirib.

Tədbirdə çıxış edən **ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev** vurğulayıb ki, tibbi tullantıların idarə olunması təkcə əhalinin sağlamlığının qorunması üçün deyil, ətraf mühitin mühafizəsi üçün də çox vacib məsələdir. Tibbi tullantıların düzgün utilizasiya edilməməsi infeksiyaların yayılması, su mənbələrinin çirklənməsi və təhlükəli maddələrin buraxılması daxil olmaqla, ciddi risklər yaradır. Tibbi tullantıların düzgün idarə olunması onların tibb müəssisələrində çeşidlənməsi, toplanması və saxlanılması ilə baş verir. Bu baxımdan, tibb müəssisələrində bu sistemin düzgün təşkili, tibbi tullantıların düzgün idarə edilməsi sonrakı mərhələlərdə də önəmli rol oynayır.

Nazir müavini söyləyib ki, tibbi tullantıların tələblərə uyğun daşınması və zərərsizləşdirilməsi idarəetmənin tam şəkildə aparılması üçün əhəmiyyətlidir: «Bu sahədə mövcud çətinliklərin aradan qaldırılması üçün aidiyyəti qurumların koordinasiyalı fəaliyyəti çox vacibdir. Tibbi tullantıların idarə olunması sahəsində mövcud vəziyyətin daha ətraflı öyrənilməsi, bu sahədə problemlərin aradan qaldırılması və zəruri tədbirlərin həyata keçirilməsi üçün nazirliklərin yaratdığı işçi qrup tərəfindən təkliflər hazırlanıb. İşçi qrup çərçivəsində bu sahədə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə mütəmadi görüşlər keçirilir və müzakirələr aparılır. İşçi qrupun fəaliyyətə başlamasından qısa müddət keçməsinə baxmayaraq, ilkin müsbət nəticələr əldə edilib. Bu yaxınlarda Milli Məclisin Səhiyyə komitəsində ölkədə tibbi tullantıların idarə olunmasına dair dinləmələr təşkil olundu. Bu da həmin sahənin nə qədər önəmli və diqqət mərkəzində olduğunu göstərir. Hesab edirəm ki, bu sahədə fəaliyyətimizi da da gücləndirməli və aidiyyəti qurumlarla birlikdə tibbi tullantıların daha səmərəli idarə olunmasına nail olmalıyıq», - deyə R.Hacıyev qeyd edib.

Daha sonra tibb müəssisəsində təhlükəli tibbi tullantıların idarə olunması, o cümlədən çeşidlənməsi və müvəqqəti saxlanması yerlərinə baxış keçirilib.

Tədbirin davamı olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində fəaliyyət göstərən «Tullantıların İdarəedilməsi Mərkəzi» MMC-də təhlükəli tibbi tullantıların zərərsizləşdirilməsi prosesi izlənilib.

Mərkəzdə təhlükəli tullantıların zərərsizləşdirilməsi geomembran və geotekstil materiallarla tam izolyasiya olunmuş hücrələrdə basdırma üsulu ilə həyata keçirilir. Partlayıcı və radioaktiv maddələr istisna olmaqla, qazma şlamı, çirklənmiş torpaqlar, istifadə müddəti bitən qida məhsulları, tibbi tullantılar və digər bu tipli tullantılar qəbul edilərək zərərsizləşdirilir.

Qeyd edək ki, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən tibbi tullantıların idarə edilməsi sahəsində koordinasiyalı fəaliyyətin təmin edilməsi məqsədilə yaradılmış işçi qrupun üzvləri tibbi tullantıların idarə olunması vəziyyətinin öyrənilməsi məqsədilə Bakı şəhəri və regionlarda monitorinqlər keçirir, bu sahədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi və tibb müəssisələrinin fəaliyyəti nəticəsində əmələ gələn tibbi tullantıların uçotunun yaxşılaşdırılması və elektronlaşdırılması istiqamətində işlər görürlər.

# Qızılcaya yoluxmaya görə həssas hesab edilən 11-40 yaşlı şəxslərin peyvəndlənməsinə başlanılır

**Səhiyyə Nazirliyi Azərbaycanda 10 yaşa qədər uşaqların qızılcaya qarşı vaksinasiyasına dair məlumat yayıb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, bu ilin əvvəllərindən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regionunda, o cümlədən qonşu ölkələr olan Türkiyə, Rusiya, İran, Qazaxıstan və Gürcüstanda qızılca xəstəliyinin alovlanmaları müşahidə edilir.

Məlumatda deyilir: «Son aylarda digər ölkələrdən gətirilmə hadisələrlə əlaqəli yoluxma halları Azərbaycanın müxtəlif regionlarında infeksiyanın yerli yayılmasına səbəb olub. Ölkə ərazisində qeydə alınmış qızılca hadisələri arasında bəzən risk qrupuna aid uşaqlarda ağırlaşmalar, yanaşı bakterial infeksiyaların inkişafı, gecikmiş müraciətlər və ya yanlış diaqnostika hallarına rast gəlinir.

Uşaqların sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə, ölkədə qüvvədə olan «Profilaktik peyvəndlər təqvimi»nə əsasən, 1 və 6 yaşlarında olan bütün uşaqlar 2 dəfə qızılca, epidemik parotit və məxmərək infeksiyalarına qarşı vaksinasiya olunmalıdırlar.

Peyvəndin 1-ci dozasını vaxtında almayan uşaqlar tez bir zamanda vaksinasiya olunmalı, 6 yaşına çatdıqda isə peyvəndin 2-ci dozasını almalıdırlar.



Hər hansı səbəbdən peyvəndin 2-ci dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar tez bir zamanda peyvəndin 2-ci dozasını almalıdırlar.

Peyvəndin hər iki dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar minimum 4 həftə intervalla peyvəndin 1-ci və 2-ci dozalarını almalıdırlar.

Uşaqların vaksinasiyası üçün yaşayış yeri üzrə uşaq əhalisinə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət edilməsi tövsiyə olunur».

Səhiyyə Nazirliyinin qızılcaya həssas əhali qruplarının vaksinasiyasına dair digər məlumatında deyilir ki, Avropa regionunda 2023-cü ilin əvvəllərindən qızılca xəstəliyinin alovlanması nəticəsində hazırda Azərbaycanın müxtəlif regionlarında infeksiyanın yerli yayılması davam edir.

Məlumatda bildirildiyinə görə, ölkə ərazisində qeydə alınan yoluxma hadisələrinin və epidemioloji vəziyyətin təhlili göstərir ki, 10 yaşa qədər uşaqlarla yanaşı, 10 yaşından yuxarı uşaqlar və böyüklər arasında da yoluxma halları baş verir.

«Yoluxma halları əsasən qızılca infeksiyasına qarşı həssas, yəni heç vaxt bu xəstəliyi keçirməyən və ya qızılcaya qarşı vaksinasiya olunmayan 40 yaşa qədər şəxslər arasında müşahidə edilir.

Səhiyyə Nazirliyi tərəfindən əhalinin sağlamlığının qorunması və yoluxmaların qarşısının alınması məqsədilə, vaxtında qızılcaya qarşı vaksinasiyadan kənarda qalan 11-40 yaşlı əhali arasında vaksinasiya tədbirlərinin aparılması üçün müvafiq vaksin preparatları ölkəyə idxal edilib. Hazırda immunizasiya tədbirlərinin təşkili üzrə işlər görülür.

Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə 10 yaşa qədər uşaqların ölkədə qüvvədə olan profilaktik peyvəndlər təqviminə əsasən vaksinasiyasını və qızılcaya yoluxmalara görə hazırda həssas hesab edilən 11-40 yaşlı şəxslərin qızılca infeksiyasına qarşı peyvənd olunmasını vacib hesab edir.

Qeyd olunan əhali qruplarının vaksinasiyası üçün yaşayış yerləri üzrə uşaq və yaşlı qrupa aid əhaliyə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət edilməsi tövsiyə olunur.

11-40 yaşlı əhali qruplarının yoluxmadan müdafiəsi üçün 1 dəfə vaksinasiya olunması kifayət edir»,- deyə Səhiyyə Nazirliyinin məlumatında bildirilir.

# Akademik Mirəsədulla Mirqasımovun 140 illiyinə həsr olunmuş tədbir keçirilib

**Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Akademiyanın ilk prezidenti, tanınmış ictimai xadim, ilk azərbaycanlı alim-cərrah, ilk tibb elmləri doktoru, Əməkdar elm xadimi, akademik Mirəsədulla Mirqasımovun anadan olmasının 140 illiyi münasibətilə tədbir keçirilib.**

Tədbirdən öncə ictimaiyyət nümayəndələri görkəmli alimin Fəxri Xiyabandakı məzarını ziyarət edib, abidəsi üzərinə tər gül dəstələri qoyub, ruhuna dualar oxuyublar.

AMEA-nın Rəyasət Heyətinin binasında baş tutan tədbirdə akademik Mirəsədulla Mirqasımovun həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** açaraq, akademik Mirəsədulla Mirqasımovun anadan olmasının 140 illiyinin «Heydər Əliyev İli»nə təsadüf etməsinin olduqca əlamətdar olduğunu, həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin görkəmli alimin fəaliyyətinə daim yüksək qiymət verdiklərini söyləyib.



Akademik Mirəsədulla Mirqasımovun həyat və fəaliyyətinin önəmli məqamlarına nəzər salan AMEA rəhbəri görkəmli alimin hələ Bakı Rus Gimnaziyasında şagird ikən elmə yüksək qiymət verdiyini, həmin dövrdə «Məktəb və həyat» jurnalında çap etdirdiyi «Müsəlman dünyasının mədəni geriliyinin əsas səbəbləri» kimi məqaləsində həqiqi dini inancın elmdən keçdiyini qeyd etdiyini söyləyib.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Mirəsədulla Mirqasımov elm və təhsil yolundan dönməmiş, Odessa şəhərindəki Novorossiysk İmperator Universitetinin Tibb fakültəsində oxuyarkən «Novorossiysk Hospital Terapevtik Klinikasının Materialları» jurnalında çap etdirdiyi «Ağciyər vəreminin süni pnevmotoraksla müalicəsi» adlı elmi-praktik məqaləsi ilə hər kəsin diqqətini cəlb etmişdi. Natiq qeyd edib ki, alimin fəaliyyəti SSRİ-nin hüdudlarından kənara çıxmış, o, 1927-ci ildə Almaniyada «Azərbaycanda sidik daşı xəstəliklərinin öyrənilməsinə dair materiallar» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdı.

O həmçinin bildirib ki, Mirəsədulla Mirqasımov Bakı Dövlət Universitetində və Azərbaycan Tibb İnstitutunda müəllimlik fəaliyyəti ilə yüksəkixtisaslı həkim kadrların hazırlanması istiqamətində də mühüm işlər görüb. Akademik Mirəsədulla Mirqasımovun həkim-cərrah, alim kimi yüksək fəaliyyəti onun Azərbaycan Elmlər Akademiyasının prezidenti seçilməsində önəmli rol oynayıb və o, qurucu prezident kimi Akademiyanın tarixinə düşüb.

«Akademik Mirəsədulla Mirqasımovun rəhbərliyi dövründə Elmlər Akademiyasının strukturu müəyyənləşdirilmiş, akademiyanın ilk Nizamnaməsi təsdiqlənmiş, Rəyasət Heyətinin və Elmi Bölmələrin tərkibi müəyyən olunmuş, elmi kitabxanası yenidən formalaşdırılmış, Akademiyanın tərkibində elmi-tədqiqat institutları, eləcə də Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası yaradılmışdır və bütün bu islahatlar görkəmli alimin rəhbərliyi altında uğurla həyata keçirilmişdir», - deyə akademik İsa Həbibbəyli bildirib.

AMEA rəhbəri akademik Mirəsədulla Mirqasımovun fəaliyyətinin daim yüksək qiymətləndirildiyini, SSRİ dövründə bir çox mükafatlara layiq görüldüyünü, müstəqillik illərində isə adının əbədiləşdirildiyini, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 130 və 140 illik yubileylərinin təntənəli keçirildiyini vurğulayıb. Həmçinin AMEA-nın Rəyasət Heyətinin Böyük konfrans zalının foyesində və Akademiyanın Mərkəzi Elmi Kitabxanasının Akademiklər zalında akademik Mirəsədulla Mirqasımovun büstünün olduğunu, bugünkü tədbir çərçivəsində isə müstəqillik illərində ilk dəfə olaraq alimin biblioqrafiyasının çap edildiyini deyib.

Akademik İsa Həbibbəyli Azərbaycan xalqının, alimlərinin, həkimlərinin, ziyalılarının və onun yetirmələrinin Mirəsədulla Mirqasımovun xatirəsini daim uca tutduğunu, onun tarixi xidmətlərinin gələcək yeni nəsillər üçün məktəb və nümunə olduğunu söyləyib.

Sonra AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsi tərəfindən akademik Mirəsədulla Mirqasımovun 140 illiyi münasibətilə hazırlanmış sənədli film nümayiş etdirilib.

Daha sonra çıxış edən **Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov** akademik Mirəsədulla Mirqasımovun 140 illik yubileyinin AMEA-da qeyd olunmasını təqdirəlayiq hal kimi qiymətləndirib. Bildirib ki, Mirəsədulla Mirqasımovun Akademiyanın təsisçilərindən biri kimi AMEA-nın yaranması və formalaşmasında son dərəcə böyük xidmətləri olub. O qeyd edib ki, akademik Mirəsədulla Mirqasımovun elmi fəaliyyəti ilə bərabər, cərrahi fəaliyyəti də son dərəcə böyük olub: «Alimin böyük cərrah və elm xadimi kimi yetişməsində müvəffəqiyyətlə bitirdiyi o dövrün çox tanınmış, nüfuzlu Novorossiysk İmperator Universitetinin böyük rolu olmuşdur. Həmçinin Odessadakı professor K.M.Sapetskinin rəhbərlik etdiyi klinikada çalışması onun yaxşı cərrah kimi yetişməsində böyük rol oynamışdır. Hər bir alimin arzusu elmi məktəb yaratmaqdır və bu baxımdan Mirəsədulla Mirqasımov xoşbəxt alimdir ki, onun elmi məktəbi bu gün də yaşayır».

Sonra **Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini İlqar Qasımov** çıxış edərək akademik Mirəsədulla Mirqasımovun Azərbaycan səhiyyəsinin və tibb elminin inkişafındakı tarixi xidmətlərindən danışıb. Qeyd edib ki, akademik Mirəsədulla Mirqasımov özünün bütün böyük və məhsuldar ömrünü urologiya, cərrahiyyə və onunla bağlı sahələrin mühüm məsələlərinin işlənib hazırlanmasına və inkişafına, Azərbaycan elminin təşkilatlanmasına həsr edib. Səhiyyə nazirinin müavini həmçinin Azərbaycanın ilk tibb elmləri doktoru və milli səhiyyənin qurucularından biri olan akademik Mirəsədulla Mirqasımovun cərrahiyyə sahəsində apardığı elmi-praktiki işlərin əhəmiyyətini vurğulayıb.

Tədbirdə **Elm və Təhsil Nazirliyi Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar və Azərbaycan Tibb Universitetinin (ATU) rektoru professor Gəray Gəraybəyli** çıxış edərək, görkəmli alimlə bağlı xatirələrini bölüşüb, Mirəsədulla Mirqasımovun yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasındakı fəaliyyətindən və onun elmi axtarışlarının bu gün də öz aktuallığını qorumasından danışıblar.

Daha sonra məruzələr dinlənilib.

**AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova** «Akademik Mirəsədulla Mirqasımovun həyatı və elmi-pedaqoji fəaliyyəti» mövzusunda məruzəsində bildirib ki, özünəməxsus məktəb yaratmış böyük Azərbaycanlılar sırasında ölkəmizdə tibb elminin və təhsilinin, ümumi cərrahiyyə və urologiyanın əsasını qoymuş, milli səhiyyənin qurucularından biri olmuş, görkəmli ictimai xadim və bacarıqlı elm təşkilatçısı, mükəmməl və parlaq həkim-klinisist, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü və ilk prezidenti, tibb elmləri doktoru, professor Mirəsədulla Mirqasımovun da adını fəxrlə çəkmək olar. O qeyd edib ki, Mirəsədulla Mirqasımov bütün həyatını və fəaliyyətini Azərbaycan səhiyyəsinə və elminə, tibb üzrə kadrların hazırlanmasına həsr etmiş, nailiyyət və ənənələri ilə məşhur olan ciddi, dərin elmi məktəb yaratmış ilk elm xadimlərindən olmuşdur.




O bildirib ki, akademik Mirəsədulla Mirqasımov ilk təhsilini ibtidai məktəbdə alıb, bir müddət mədrəsədə oxuduqdan sonra Bakı Rus Gimnaziyasına daxil olaraq təbiət qanunları, insan, heyvan və bitki dünyasının xüsusiyyətləri ilə tanış olmaq imkanı qazanıb. Məruzəçi diqqətə çatdırıb ki, 1908-ci ildə gimnaziyanı bitirən Mirəsədulla Mirqasımov Odessa şəhərindəki Novorossiysk İmperator Universitetinin (hazırda İ.İ.Meçnikov adına Odessa Milli Universiteti) Tibb fakültəsinə daxil olmuşdur.

Akademik İradə Hüseynova vurğulayıb ki, artıq mükəmməl cərrahi təlim almış Mirəsədulla Mirqasımov 1916-cı ildə Bakıya qayıdaraq öz taleyini və elmi-tibbi fəaliyyətini bütünlüklə Azərbaycan səhiyyəsi ilə bağlamış, Bakı Dövlət Universitetində və Azərbaycan Tibb İnstitutunda yerli mütəxəssislərin hazırlanmasında məharətlə xidmət göstərmişdir: «Alimin 45 illik elmi-təcrübi, həkimlik və elmi-pedaqoji fəaliyyəti dövründə nüfuzlu jurnallarda işıq üzü görmüş qiymətli əsərləri, elmi cəmiyyətlərin yığıncaqlarında, konqreslərdə, konfranslarda, digər tədbirlərdə çoxsaylı məruzə və çıxışları, fundamental monoqrafiyaları həkim və alim ictimaiyyətinin diqqətini hər zaman özünə cəlb etmişdir».

Məruzəçi bildirib ki, professor Mirəsədulla Mirqasımovun 1933-cü ildə ümumi cərrahiyyə üzrə Azərbaycan dilində ilk dərsliyi yazaraq nəşr etdirməsi mühüm hadisə idi. Akademik İradə Hüseynovanın sözlərinə görə, Mirəsədulla Mirqasımov danılmaz yüksək şəxsi keyfiyyətləri, elmi bilikləri, hər iki dünya müharibəsində topladığı böyük təcrübənin səmərəli tətbiqi ilə respublikada xəstəxana xidmətlərinin inkişafına və möhkəmlənməsinə böyük töhfələr vermişdir.

«Bütün bunlar, eləcə də professor Mirəsədulla Mirqasımovun ictimai fəallığı, həm sadə insanlar, həm də elmi ictimaiyyət arasında qazandığı böyük nüfuz onun 1945-ci ildə yaradılan Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən biri olması, hətta hazırlıq işlərinin aparılması, sənədləşdirilmə və s. kimi fəaliyyətləri öz öhdəsinə götürməsi ilə nəticələnir. Azərbaycan elmi fikrinin inkişafı tarixində ilk dəfə olaraq elmi fəaliyyət mükəmməl təşkilati struktura malik sistemli xarakter almağa başlayır. Ümumi iclasda Azərbaycan SSR Elmlər Akademiyasının 15 həqiqi üzvündən biri və ilk prezidenti seçilir. Alimin Akademiyanın formalaşmasında və inkişafında oynadığı rol ən yüksək qiymətə layiqdir», — deyə İ.Hüseynova vurğulayıb.

Tədbirdə **ATU-nun Birinci cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Nuru Bayramov**un «Akademik Mirəsədulla Mirqasımovun Azərbaycan Tibb Universitetinin inkişafında rolu» **və ATU-nun Urologiya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Sudeif İmamverdiyev**in «Azərbaycanda urologiya elminin təşəkkülü və inkişafı» mövzusunda məruzələri dinlənilib.

Sonda akademik Mirəsədulla Mirqasımovun oğlu **Xalq artisti Oqtay Mirqasımov** çıxış edərək, atasının yubileyinin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

# Səhiyyə Nazirliyi «Sağlam uşaq» internet portalı və mobil tətbiqini istifadəyə verib




**Məktəblilər, valideynlər və müəllimlər üçün «Sağlam uşaq» internet portalı, eləcə də mobil tətbiqi hazırlanaraq istifadəyə verilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Məlumatda deyilir ki, «Azərbaycan Respublikasının 2022 - 2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nda uşaqların sağlamlığının qorunmasına böyük önəm verilir. Qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində mobil tətbiqlərin və interaktiv internet portallarının yaradılması əsas istiqamətlərdən biridir.

Nazirliyin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) uşaqların sağlamlığının qorunmasının əhəmiyyətini nəzərə alaraq, məktəblilər, valideynlər və müəllimlər üçün «Sağlam uşaq» internet portalı, eləcə də mobil tətbiqi hazırlayaraq, istifadəyə verib.

«Sağlam uşaq» internet portalında məktəblilərin sağlam inkişafına təkan verən faydalı məlumatlar, maarifləndirici materiallar, videoçarxlar və interaktiv oyunlar yerləşdirilib.

Portal «Uşaq», «Valideyn» və «Müəllim» bölmələrindən ibarətdir. Ümumi olaraq, portala hazırda 583 məqalə, 200 maarifləndirici material, 131 videoçarx, 30-dan çox infoqrafika və uşaqlar üçün maarifləndirici oyunlar yerləşdirilib. Portal Azərbaycan və rus dillərində təqdim olunub. Gələcəkdə yeni materialların yerləşdirilməsi nəzərdə tutulub.

Eyni zamanda, portalın materialları əsasında hazırlanan «Sağlam uşaq» mobil tətbiqi də istifadəyə verilib. «AppStore» və «PlayMarket» vasitəsilə tətbiqi telefona yükləyərək, məlumatlardan faydalanmaq mümkündür.

# Reanimatoloq və anestezioloqların I Milli Konqresi keçirilib



**«Azərbaycanda anesteziologiya və reanimatologiya bir elm sahəsi kimi tibbi texnologiyaların və innovasiyaların hesabına son 10 il ərzində böyük irəliləyiş əldə edib».**

AZƏRTAC xəbər verir ki, bunu səhiyyə nazirinin müavini Nadir Zeynalov Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin Birinci Milli Konqresində deyib.

O qeyd edib ki, bu sahədə tibbi nailiyyətlər əldə etmək üçün praktika çox vacibdir.

«Vətən müharibəsində anestezioloqlar və reanimatoloqlar arxa cəbhədə cərrahlarla və digər mütəxəssislərlə çiyin-çiyinə böyük səylər göstəriblər. Eyni zamanda, dünyanın müxtəlif yerlərində baş verən təbii fəlakətlər, onların nəticələrinin aradan qaldırılmasında anestezioloq və reanimotoloqların böyük işi və rolu var. Xüsusilə, qardaş Türkiyədə yaşanan dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında anestezioloq və reanimatoloqların üzərinə böyük yük düşürdü», — deyə nazir müavini bildirib.

# «Kardiologiyada yeni çağırışlar - 2023»

## *Kardiologiya İnstitutunda bu mövzuda beynəlxalq elmi konqres keçirilib*

Səhiyyə Nazirliyinin Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutu (ETKİ) tərəfindən «Kardiologiyada yeni çağırışlar - 2023» mövzusunda beynəlxalq elmi konqres keçirilib.

«Heydər Əliyev İli» çərçivəsində təşkil olunan tədbirdə Milli Məclisin deputatları, Azərbaycan Tibb Universitetinin müəllim və tələbələri, ali təhsil və tibb müəssisələrinin nümayəndələri, Azərbaycan və Türkiyənin tanınmış elm xadimləri və «ETKİ könüllüləri” iştirak ediblər.



Əvvəlcə Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə ETKİ-nin direktoru Gülnaz Dadaşova çıxış edərək Ulu Öndərin həyat və fəaliyyətinin gələcək nəsillərə çatdırılması baxımından belə tədbirlərin vacibliyini vurğulayıb, Heydər Əliyevin təşəbbüsü ilə görülən mühüm işlərdən danışıb. Tədbir haqqında məlumat verən ETKİ-nin direktoru konqresin ölkəmizdə kardiologiyanın inkişafına böyük töhfə verəcəyini bildirib.

Sonra çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova söyləyib ki, ürək cərrahiyyəsində çox böyük uğurlara imza atan Azərbaycan bu gün regional mərkəzə çevrilməkdədir. O bildirib ki, bu gün erkən tibbi müayinə və hətta ana bətnində uşaqların müayinəsi, keçirilən əməliyyatlar nəticəsində ürək qüsurları aradan qaldırılır: «Bu da öz növbəsində uşaq ölümlərinin qarşısının alınmasına müsbət təsir göstərir. Lakin bununla yanaşı, bizi hələ də bir çox məsələlər narahat edir. Belə ki, dünyada ölümə və əlilliyə səbəb olan xəstəliklər arasında ürək-damar xəstəlikləri birinci sırada dayanır. Dünya üzrə ümumi ölüm hallarının təxminən 50 faizinin səbəbi bu xəstəliklərdir. Xəstəliyin cavanlaşması və hətta uşaqlar arasında olması, əlbəttə ki, bizi düşündürməlidir».

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin (DGKTXİ) rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov bildirib ki, dünyada hər il 500 milyondan artıq insan ürək-damar xəstəliklərinə məruz qalır, xəstələnmə sayı ildən-ilə artır. Bununla belə, o qeyd edib ki, standartlaşdırılmış statistikaya əsasən, hər bir yaş qrupunda ürək-damar xəstəliklərindən ölüm halları azalır. Bu da yeni müalicə metodları və innovativ texnologiyaların hesabınadır.

Tədbirdə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Ergin Həbibullayev, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, DGKTXİ-nin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov, Mərkəzi Klinik Xəstəxananın baş həkimi professor Kamran Musayev və başqaları Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışıb və konqresin təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıblar.

Üç yüzə yaxın həkimin iştirakı ilə keçirilən tədbirdə kardiologiyanın aktual elmi və praktiki aspektlərinə dair məruzələr dinlənilib, mövzu ilə bağlı müzakirələr aparılıb və suallar cavablandırılıb.

# Bir neçə tibb müəssisəsində rentgen-müayinə fəaliyyəti dayandırılıb

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi səlahiyyətlərinə uyğun olaraq ölkə ərazisində nüvə və radioloji fəaliyyət sahəsində təhlükəsizliyin təmin edilməsi istiqamətində zəruri tədbirlər görülməsini davam etdirir.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, həmin tədbirlər çərçivəsində agentliklə «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» (TƏBİB) Publik Hüquqi Şəxs (PHŞ) arasında əməkdaşlıq zəminində «Hacıqabul Rayon Mərkəzi Xəstəxanası» PHŞ-nin müraciəti əsasında rentgen kabinetində keçirilmiş yoxlama tədbirləri zamanı radiasiya təhlükəsizliyi tələblərinin pozulmasına dair faktlar, o cümlədən ionlaşdırıcı şüa mənbələri hesab edilən qurğuların istismarı üçün tələb olunan müvafiq icazənin olmadığı aşkar edilib. Bu pozuntularla əlaqədar qanunvericiliyin tələblərinə uyğun olaraq görülmüş tədbirlər nəticəsində qeyd olunan tibb müəssisəsində rentgen kabinetinin fəaliyyəti dayandırılıb.

Digər bir məlumatda bildirilir ki, Agentlik tərəfindən Bakı şəhəri, Nərimanov rayonu, Ceyhun Hacıbəyli küçəsində fəaliyyət göstərən, fiziki şəxs Məmmədov Rövşən Afiq oğluna məxsus stomatoloji klinikada sahibkarın müraciəti əsasında keçirilmiş yoxlama tədbirləri zamanı rentgen aparatının istismarı ilə əlaqədar radiasiya təhlükəsizliyi tələblərinin pozulması faktı aşkar edilib. Faktla bağlı agentlik tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq görülmüş tədbirlər nəticəsində qeyd olunan stomatoloji klinikada



istifadə edilən rentgen aparatının istismarı dayandırılıb.

FHN Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin fəaliyyətini dayandırdığı daha iki rentgen kabineti Cəlilabad və Naftalan Rayon Mərkəzi xəstəxanalarındadır. Belə ki, Agentliklə TƏBİB arasında əməkdaşlıq zəminində «Cəlilabad Rayon Mərkəzi Xəstəxanası» PHŞ-nin və «Naftalan Rayon Mərkəzi Xəstəxanası» PHŞ-nin müraciətləri əsasında rentgen kabinetlərində keçirilmiş yoxlama tədbirləri zamanı radiasiya təhlükəsizliyi tələblərinin pozulmasına dair faktlar, o cümlədən ionlaşdırıcı şüa mənbələri hesab edilən qurğuların istismarı üçün tələb olunan müvafiq icazələrin olmadığı aşkarlanıb. Təhlükəsizliyin təmin edilməsi məqsədilə hər iki tibb müəssisəsində rentgen kabinetlərinin fəaliyyəti dayandırılıb.

> *«İnfeksiya üçün milli sərhədlər yoxdur. Biz harada isə infeksiyanın közərməsinə fikir verməsək, bu bizə baha başa gələcəkdir».*
>
> ***J.Lederberq,***
> ***Mikrobiologiya üzrə***
> ***Nobel mükafatı laureatı***

# Qızılca – yenidən qayıdan infeksiya: epidemioloji nəzarət məsələləri

**Qızılca hava-damcı yolu ilə ötürülən, yüksək kontagiozlu kəskin virus infeksiyası olub, ciddi ağırlaşmalara və letal nəticəyə səbəb ola bilir. İnkişaf etmiş ölkələrdə qızılca infeksiyasından ölüm göstəricisi 1:1000, inkişaf etməkdə olan ölkələrdə isə 1:4 nisbətdə təşkil edir.**

Qızılca infeksiyasının etioloji amili *Paramyxoviridae* fəsiləsinin *Morbilli* virus cinsinə aid olan RNT tərkibli virusdur. O, sferik formada olub, diametri 120-230 nm-dir. Qızılca virusu ətraf mühitdə az davamlı olub 2 saat aktiv qala bilir.

İnfeksiya mənbəyi qızılca ilə xəstə şəxsdir və inkubasiya dövrünün (8-17 gün) 4-cü günündən səpgilərin 4-cü gününə qədər yoluxdurucu olur. Səpgilərin 5-ci günü xəstə artıq yoluxdurucu olmur. Xəstədə 38-40°C hərarət, zökəm, quru öskürək, işıqdan qorxma, başağrısı, konyunktivanın qızarması, əsnəyin hiperemiyası, enantema – bərk və yumşaq damaqda qırmızı ləkələr qeyd edilir.

Vaksinasiya aparıldığına görə qızılca idarə olunan infeksiyalar qrupuna daxildir. Bu infeksiyaya qarşı vaksinasiya dünyanın əksər ölkəsində, o cümlədən də Azərbaycan Respublikasında Milli Peyvəndlər Təqviminə daxildir.

2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və qlobal maraqlı tərəflər 2021-2023-cü illərdə dünya üzrə immunlaşma sahəsində fəaliyyət proqramı qəbul ediblər. ÜST «qızılca və məxmərəklə strateji mübarizə proqramı»nı elan edib ki, bu zaman qızılca və məxmərəyin eliminasiyası üzrə regional məqsəd göstəricilərinə nail olunması və saxlanılması məqsədilə 7 vacib strateji prioritet müəyyən edilib.

BMT Fondu, xəstəliklərə nəzarət və profilaktika mərkəzləri, Beynəlxalq Peyvənd Alyansı (GAVİ), UNİCEF və ÜST 2030-cu ilə qədər qızılca və məxmərəklə mübarizə üzrə birgə əməkdaşlıq haqqında qərar qəbul ediblər. 2001-ci ildən başlayan bu əməkdaşlığın məqsədi qızılca və məxmərəklə mübarizə təşəbbüsü kimi, heç bir uşağın qızılcadan ölməməsi və heç bir uşağın anadan qızılca ilə doğulmaması üçün səyləri birləşdirməkdir.

Bu gün ÜST həyəcan təbili çalır: qeydə alınan qızılca hadisələrinə ciddi fikir verməsək, çox böyük əziyyətlər bahasına bu xəstəliyin eliminasiyası sahəsində əldə edilmiş nailiyyətlər hədər olacaq. ÜST-nin immunlaşma üzrə strateji məsləhət qrupunun ekspertləri belə qənaətə gəliblər ki, qızılcanın eliminasiyası təhlükə altındadır. Belə ki, xəstəlik ya onun tamamilə eliminasiyasına nail olunan, ya da buna yaxın olan onlarla ölkədə qeydə alınmaqdadır. ÜST-nin Baş direktoru Tedros Gebreyesus qeyd edib ki, son illərdə COVID-19 əleyhinə vaksinlər qısa müddət ərzində əldə edilsə də, digər infeksiyalara qarşı planlı immunizasiya proqramının həyata keçirilməsində əhəmiyyətli boşluqlar yaranıb və qızılcaya yoluxma hadisələri qeyd olunmağa başlayıb: «Bu gün həmin proqramı yenidən başlamaq lazımdır. Hər bir rəqəm arxasında ölüm riskinə məruz qalan bir uşaq dayanır, bunu unutmamalıyıq!»



Son 6 ayda bütün dünyada, o cümlədən Azərbaycanda da qızılcaya görə nisbi sakitlik fonunda sporadik xəstələnmə və qrup alovlanmaları müşahidə olunur. 2016-cı ildən qızılcanın eliminasiyasına nail olunan 10 ölkədə xəstəliyin alovlanması halları baş verib. Bu xəstələnmə halları immunlaşma proqramında olan zəif yerləri göstərir.

ÜST-nin rəsmi məlumatına əsasən, 2000-2021-ci illərdə qızılca əleyhinə aparılan vaksinasiya uşaqlar arasında 56 milyon ölüm hadisəsinin qarşısını alıb. Qızılca əleyhinə təhlükəsiz və effektiv peyvəndin olmasına baxmayaraq, 2021-ci ildə ÜST-nin qiymətləndirmələrinə görə bütün dünyada qızılcadan 128 min ölüm hadisəsi qeydə alınıb ki, bu da əsas etibarilə 5 yaşa qədər peyvənd olunmayan və ya tam peyvənd olunmayan uşaqlar olub. 2022-ci ildə bütün dünyada uşaqların cəmi 83%-i qızılca əleyhinə peyvəndin bir dozasını həyatlarının birinci ilində alıb ki, bu da çox aşağı göstəricidir. 2022-ci ildə bütün dünyada uşaqların yalnız 74%-i qızılcaya qarşı peyvəndin hər 2 dozasını alıb. Davamlı immunitetin formalaşması üçün hər 2 dozanın mütləq şəkildə alınması vacibdir, çünki birinci dozadan sonra immunitet bütün uşaqlarda yaranmaya bilər.

2022-ci ildə bütün dünyada yayılan COVID-19 pandemiyası qızılcaya epidemioloji nəzarət və immunlaşma xidmətlərinin normal fəaliyyətinin pozulmasına gətirib çıxardı. Qlobal miqyasda qızılca əleyhinə immunlaşma xidmətinin və immunlaşma göstəricilərinin aşağı düşməsi, eləcə də epidemioloji nəzarətin zəifləməsi, xüsusilə uşaq kontingenti arasında kollektiv (populyasion) immunitetin tam formalaşmasında zəif halqaların yaranmasına və nəticə etibarilə, qızılca ilə sporadik xəstələnmə və qrup alovlanmalarının baş verməsinə şərait yaratmış oldu.

Qızılcaya yoluxma hallarının baş verməsində mühüm bir göstərici reproduksiya indeksi, yaxud reproduksiya sayıdır. Reproduksiya indeksi (R0) tibbi epidemiologiyada yoluxucu xəstəliklərin yoluxduruculuğunu səciyyələndirən parametrdir. Bu göstərici xəstəliyin yayılmasının qarşısını almağa yönəlmiş xüsusi əksepidemik tədbirlər (karantin, təcridetmə) olmadığı təqdirdə tam qeyri-immun populyasiyaya düşən yoluxan fərdlərin sayıdır. R0>1,0 halda xəstələnənlərin sayı eksponensial qaydada artacaqdır. Qızılca üçün $R_0$ 11-15, suçiçəyi üçün 7-12, epidemik parotit üçün 11-14-dür. Müqayisə üçün qeyd edək ki, SARS CoV-2 üçün $R_0$=2,8-3,0.

Hesablamalar göstərir ki, epidemik alovlanmaların qarşısını almaq üçün $R_0$ 1 olmalıdır ki, bunun üçün peyvəndləmənin əhatə dairəsi ən azı 96,9% təşkil etməlidir. Daha az yoluxdurucu olan xəstəlik zamanı epidemiyaların qarşısının alınması üçün tələb olunan immun əhalinin sayı az olur. Məsələn, R0 =1,4 olduqda, bu say 29,0%-dən azdır, yəni bu faizə nail olduqda xəstəlik yayılmır. R0 göstəricisinin epidemioloji proqnozlaşdırmada da mühüm əhəmiyyəti vardır.

ÜST qızılcanın eliminasiyası və ləğvinin vacib komponenti kimi epidemioloji nəzarəti ön plana çəkir. ÜST-nin son tövsiyələrinə əsasən, hazırda epidemioloji nəzarətin 2 əsas növü qeyd olunur: indikator əsaslı epidemioloji nəzarət və siqnal hadisələrə əsaslanan epidemioloji nəzarət. Qızılcanın eliminasiyası dövründə xüsusilə siqnal hadisələrə əsaslanan epidemioloji nəzarətin aparılması və qızılca virusunun populyasiyada dövr etməsinin aşkar edilməsi üçün vacib olan amillər bunlardır:

- hər bir ərazidə qızılca hadisələrinin olması barədə bildirişlərin həftəlik toplanması;
- 48 saat ərzində şübhəli halların tam araşdırılması;
- adekvat müayinə olunan halların xüsusi çəkisi;
- laborator müayinə üçün nümunə götürülən halların xüsusi çəkisi;
- ilk 4 gündə laborator müayinə aparılan halların xüsusi çəkisi.

Qızılcanın son diaqnozu laborator təsdiq olduqda, yaxud digər təsdiq olunmuş hal ilə epidemik əlaqə olduqda müəyyən edilir. Qızılca ilə xəstələnmənin azaldılmasında virus izolyatlarının identifikasiyası və onların endogen, yaxud xaricdən gəlmə olduğunun təyin edilməsi əhəmiyyətlidir. ÜST hesab edir ki, molekulyar epidemiologiya üsulları qlobal miqyasda qızılca virusunun dövr etməsinin izlənməsində standart alət olmalıdır. Təcrübə göstərir ki, qızılca virusunun Avropa, Asiya və Amerika ştamlarının dövr etmə arealı dəyişib. Bu günə qədər qızılca virusunun 7 müxtəlif qrup ştammı identifikasiya olunub və hazırda istifadə edilən vaksinlər bütün bu ştamlara qarşı effektivdir.

Qızılca infeksiyasının eliminasiyası üçün əhalinin qızılcaya qarşı kollektiv immunitetinin vəziyyətinin monitorinqi də mühüm məlumat verir. Peyvəndləmənin əhatə səviyyəsi kollektiv immunitetin yaranmasının dolayı göstəricisi olsa da, peyvənd olunan şəxslər arasında immunitetin yaranmaması hallarını müəyyən etməyə, əhalinin qızılca infeksiyasından qorunma dərəcəsini obyektiv qiymətləndirməyə imkan verir.

Ölkədə endogen qızılcanın eliminasiyasından sonra xaricdən gəlmə qızılca hallarına xüsusi diqqət verilməlidir. Hətta qızılcanın eliminasiyası olan ölkələrdən də xəstəliyin gətirilməsi mümkündür. Odur ki, ÜST qızılca hallarını belə təsnif edir: endogen (xəstəlik mənbəyi məlum deyil), xaricdən gəlmə (mənbə məlumdur) və xaricdən gəlmə (mənbə məlum deyil). Odur ki, baş verən hər bir qızılca ilə xəstələnmə hadisəsi ciddi şəkildə təhlil olunmalı, törədici identifikasiya edilməli və xəstəlik mənbəyi təsdiq olunmalıdır.

ÜST hələ 2010-cu ildə optimist məqsəd kimi 2015-ci ildə qızılca ilə xəstələnmənin praktik ləğv olunmasını (milyon nəfərə 5 hadisədən az) qarşıya qoymasına baxmayaraq, 2018-ci ildən başlayaraq dünyanın əksər ölkələrində, o cümlədən Azərbaycanda da qızılca ilə xəstələnmə halları qeyd olunmaqdadır.

İlk dəfə 910-cu ildə İran filosofu və həkimi Ər-Razi özünün yazdığı «Çiçək və qızılca haqqında» əsərində qızılcanı hətta çiçək xəstəliyindən də təhlükəli adlandırmışdı. Çiçək xəstəliyindən («böyük» xəstəlik, morbus) fərqli olaraq, «kiçik» xəstəlik (morbillus) adlandırılan qızılca ilə bəşəriyyətin 60 ildir ki, apardığı mübarizənin boşa çıxmaması üçün bu gün qızılca infeksiyasına görə bütün istiqamətlərdə ciddi şəkildə epidemioloji nəzarətin aparılması tələb olunur.

**L.RÜSTƏMOVA,**
**S.MƏMMƏDOV,**
**F.HEYDƏROVA**
**V.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu**

# Qulaqlıqlardan istifadənin insan orqanizminə təsirləri

**İnternet əsri adlandırılan müasir dövrdə cəmiyyət intensiv və genişmiqyaslı yeniliklərlə qarşılaşır. Çox sürətlə baş verən yeniliklər insan həyatının tərkib hissəsinə çevrilir və bəzən də onu müəyyən fəsadlarla üz-üzə qoyur.**

Müasir həyatı mobil telefonsuz təsəvvür etmək qeyri-mümkündür. Bir çoxları başqalarını narahat etmədən mobil əlaqə yaratmaq, telefonda musiqi dinləmək üçün qulaqlıqlardan istifadə edirlər. Ancaq təəssüf ki, elmi və tibbi araşdırmalar bu qurğuların eşitmə orqanlarına mənfi təsirini göstərir. Ona görə də qulaqlıqların hansı hallarda zərərli olması və eşitmə qabiliyyətinə zərər verməməsi üçün onlardan düzgün istifadə ilə bağlı cəmiyyətin maarifləndirilməsi vacibdir. Müşahidələr göstərir ki, böyük şəhərlərdə, o cümlədən Bakıda qulaqlıqlardan istifadə nəinki tibbi baxımdan, eləcə də bir çox digər cəhətlərdən təhlükə mənbəyinə çevrilib.

Əlbəttə, çoxları qulaqlıqla musiqi və ya audiokitab dinləməyin üstünlüklərini qeyd edə bilər. Üstəlik, əgər əvvəllər dinləyənlərin əksəriyyəti gənclər idisə, indi bu yolla vaxtdan səmərəli istifadə edən müxtəlif yaş qruplarına aid insanlara rast gəlmək qeyri-adi deyil. Ancaq unutmaq olmaz ki, belə dinləmə rahatlığının mənfi tərəfləri də var.

Hələ 2021-ci ilin sentyabrından Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qulaqlıqlar kimi şəxsi audio cihazlarından yüksək səviyyəli səsə məruz qalma ilə bağlı potensial sağlamlıq riskləri haqqında fəal şəkildə araşdırmalar aparır və təlimatlar verir. ÜST-nin şəxsi audio cihazları ilə bağlı təlimatında qeyd etdiyi əsas məqamlara təhlükəsiz dinləmə təlimatı, səs-küyün səbəb olduğu eşitmə itkisi, sağlamlıq təhsili və s. aiddir. Problemin aktuallığı həm də onunla bağlıdır ki, məhz 2021-ci ildən etibarən ÜST yüksək səsli musiqiyə qulaq asmağın potensial təhlükələri və eşitmə qabiliyyətinin qorunmasının vacibliyi haqqında məlumatlılığı artırmaq üçün maarifləndirici kampaniyaları təşviq edir.

Müasir dövrümüzdə nadir hallarda kimsə qulaqlıqların təhlükələri, daha doğrusu, onların özləri haqqında deyil, yerinə yetirdikləri funksiyalar haqqında düşünür. Bu məlumata diqqət yetirin - səsli cihazdan (mobil telefon və ya MP-3 pleyer) gələn səs gücü təxminən 110-120 desibeldir. Belə səsin insan qulağına təsir gücü 10 metr məsafədə reaktiv mühərrikin (!) insana təsirinə bərabərdir!

80-90 desibeldən yüksək olan hər hansı səs-küy eşitmə sisteminə mənfi təsir göstərir. Yüksək səsli musiqi, xüsusilə də məsafədən deyil, birbaşa qulaqlıqlardan gəlirsə, səsin qəbuluna məsul olan hüceyrələrə təsir göstərir. Buna, məsələn, metrodakı səs-küy və vibrasiya da əlavə olunursa, vəziyyət daha da pisləşir, bu da qulağın strukturuna mənfi təsir göstərir. Bu iki amil birlikdə olanda, kəskin eşitmə itkisinə səbəb olur və bu, sözün əsl mənasında, bir gecədə baş verə bilər. Halbuki, onun müalicəsi uzun zaman tələb edir və əksər hallarda da 100 faizlik nəticə əldə olunmur.

Hesab olunur ki, sağlam qulağın ayırd edə biləcəyi ən sa-



kit səslər 5-10 dB-dir. Pıçıltı artıq 20 dB, normal söhbət 30-35 dB səviyyəsində qiymətləndirilir. Səs təzyiqi səviyyəsi 60 dB olan qışqırıq artıq narahatlığa səbəb olur, 90 dB gücündə olan səslər eşitmə fəsadı yarada bilər. Yəni 100-120 dB səviyyəsində olan istənilən pop və ya rok konserti qulaqlar üçün ciddi təhlükədir və 120 dB-dən yuxarı səslər artıq qulaqlarda ciddi ağrılar yaradır.

Təbiət insan qulağında yüksək səslərdən yalnız qısamüddətli qorunmanı təmin edir, lakin uzunmüddətli məruz qalma qaçılmaz olaraq eşitmə itkisinə səbəb olur. Qısa müddətli yüksək səs-küyə məruz qaldıqdan sonra daxili qulaqdakı tük hüceyrələri yenilənir, eşitmə kəskinliyi bərpa olunsa da, müvəqqəti bir qədər azalır. Səs-küyə təkrar və uzun müddət məruz qaldıqda, eşitmə duyğu hüceyrələri daha ciddi şəkildə zədələnir və bərpa edilə bilməyəcək hal alır.

Əslində, səs yoxdur: o, qulaqın özündə, ona ötürülən titrəmələrlə eşitmə sinir uclarının qıcıqlanması nəticəsində yaranır. Musiqi səsi qulaq pərdəsinin nizamlı titrəyişləri ilə hiss olunur, qeyri-bərabər vibrasiyalar və müxtəlif qısa səslərin qarışığı isə səs-küy təəssüratını yaradır. Yüksək səslər sürətli vibrasiya, aşağı səslər daha yavaş titrəmələrlə əmələ gəlir. İnsan qulağının ayırd etdiyi ən aşağı səs və ya ton saniyədə 16 vibrasiya ilə yaranır. Səsin eşidilmə qabiliyyətinin yuxarı həddi isə insandan insana dəyişir və saniyədə 16 mindən 33 minədək vibrasiya arasındadır.

Qulaqdaxili qulaqlıqda musiqi dinləməklə bağlı əsas problem insanın səs səviyyəsinə nəzarət edə bilməməsidir. Yəni ona elə gələ bilər ki, musiqi sakitcə səslənir, amma əslində onun qulaqlarında 100 desibel olacaq.

Onu da qeyd edək ki, bəzi insanlar mobil cihazdan sadəcə musiqi dinləmək üçün deyil, daha çox xarici aləmdən ayrılmaq, öz ətrafında müəyyən sərhəd yaratmaq üçün istifadə edirlər. Qulaqlıqlarda səslənən sevimli musiqi insana xarici qıcıqlanma mənbələrindən, küçə səs-küyündən, tələsdən və s. ayrılmağa kömək edir. Nəticədə, insan 30 yaşdan sonra qulaqlarında küy yaranması ilə, 40 yaşdan sonra isə eşitmə problemi ilə bağlı narahatlıqlar yaşamağa başlayır.

Bütün bunlarla yanaşı, qulaqlıqla davamlı eşidilən səs diqqətin azalmasına, müxtəlif növ işlər zamanı səhvlərin artmasına səbəb olur. Səs-küy insanın texniki cihazlardan gələn siqnallara reaksiyasını ləngidir, mərkəzi sinir sistemini depressiyaya salır, tənəffüs sürətində və ürək döyüntülərində dəyişikliklərə səbəb olur, maddələr mübadiləsinin pozulmasına, ürək-damar xəstəliklərinin, mədə xoralarının və hipertoniyanın yaranmasına səbəb olur. Uzun müddətli səs-küy eşitmə orqanına mənfi təsir göstərir, səsə həssaslığı azaldır. Ürəyin və qaraciyərin pozulmasına, sinir hüceyrələrinin tükənməsinə və həddindən artıq yüklənməsinə səbəb olur. Sinir sisteminin zəifləmiş hüceyrələri müxtəlif bədən sistemlərinin işini aydın şəkildə əlaqələndirə bilmir, onların fəaliyyətində pozuntular yaranır.

Hələ qədim zamanlarda səs-küyün zərəri insanlara bəlli idi, məsələn, bəzi qədim şəhərlərdə səs-küyün məhdudlaşdırılması qaydaları tətbiq edilirdi. Sonralar uzun müddət bu məsələ tədqiq olunmadı. Lakin hazırda bir çox ölkələrin alimləri səs-küyün insan sağlamlığına təsirini müəyyən etmək üçün müxtəlif tədqiqatlar aparırlar. Onların araşdırmaları göstərdi ki, səs-küy insan sağlamlığına əhəmiyyətli zərər verir, lakin mütləq səssizlik də onu qorxudur və depressiyaya salır.

Beləliklə, qulaqlıqlar nə qədər rahat və cəlbedici olsa da, yadda saxlamaq lazımdır ki, onların səhv və ya həddindən artıq istifadəsi orqanizm üçün zərərli ola bilər. Qulaqlıqdan istifadənin potensial zərərli təsirləri eşitmə itkisi, ətraf aləmlə əlaqəsizlik, qulaqların çirklənməsi, stress və yorğunluq, asılılıq, yol hərəkəti təhlükəsizliyi və psixoloji təsir ola bilər.

**Seymur ƏSƏDOV,**
**Bakı şəhəri 6 saylı Poliklinikanın həkim-otolarinqoloqu,**
**Vətən müharibəsi veteranı**
**Asim NURİ,**
**«Roof Academy Training»in tələbəsi**

# Noyabrda 21 aptekdə yoxlama aparılıb

**Noyabrda keçirilən yoxlamalar zamanı bir aptekdə nöqsan aşkarlanıb.**

Bu barədə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən məlumat verilib.

Bildirilib ki, noyabrda aptek təşkilatlarında keçirilən yoxlamalar nəticəsində Bakı şəhəri üzrə 17 planlı və 3 plandankənar, ölkənin digər şəhər və rayonlarında 1 aptekdə plandankənar olmaqla, ümumilikdə 21 aptekdə planlı və plandankənar yoxlamalar aparılıb.




İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə 1 protokol tərtib edilib.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**«Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu» PHŞ**

Elmi işçi - 1.0 (Ətraf mühitin sağlamlığı bölməsi)
Elmi işçi - 1.0 (Helmintologiya bölməsi)

*Ünvan: C.Cabbarlı küç., 35*
*Telefon: 594-69-31*

**Milli Onkologiya Mərkəzi**

*Şüa diaqnostikası bölməsinə:*
Kiçik elmi işçi - 1.0

*Ünvan: H.Zərdabi küç., 79b*
*Telefon: 537-08-11*

**Qobustan Rayon GEM**

Həkim-parazitoloqun köməkçisi - 1.0
Sanitar-feldşer - 1.0

*Ünvan: Koroğlu küç.*
*Telefon: (020245) 5-28-46*

**Şəmkir Rayon GEM**

Həkim-epidemioloqun köməkçisi - 1.0
Sanitar-feldşer - 1.0
Feldşer-laborant - 1.0
*Ünvan: H.Aslanov küç., 73*
*Telefon: (02230) 5-89-86*

**1 nömrəli Körpələr Evi**

Tibb bacısı (qardaşı) - 2.0
Masaj üzrə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Bakıxanov küç., 37*
*Telefon: 440-49-28*

**ATU-nun Tədris Cərrahiyyə Klinikası**

Tibb bacısı (qardaşı) - 10.0

*Ünvan: Mirqasımov küç., 2*
*Telefon: 449-82-54*

**«Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi» PHŞ**

Tibb bacısı (qardaşı) - 4.0

*Ünvan: Şərifzadə küç., 196*
*Telefon: 432-12-14*

**Kürdəmir Rayon Psixiatriya Xəstəxanası**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: H.Əliyev pr., məhəllə 3, bina 47a*
*Telefon: (02025) 5-29-33*

## Abunə kampaniyası davam edir!

**2024-cü ilin I yarısı üçün abunə kampaniyası dekabr ayının 31-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

**«Tibb qəzeti» VÖEN 1400410961 İBAN AZ43İBAZ 38090019449323220204 h/h38090019449323220204**
**Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı**
**Kod: 805722 AZ03NABZ 01350100000000002944**
**BANK (VÖEN) 9900001881**
**S W İ F T İBAZAZ 2X**

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər.*
*Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq

Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@health.gov.az

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9300

# «Səhiyyədə müasir nailiyyətlər»

## *RDM-də bu mövzuda elmi-praktiki konfrans keçirilib*






**Respublika Diaqnostika Mərkəzinin (RDM) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş «Səhiyyədə müasir nailiyyətlər» mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Dövlət himni ilə başlanan tədbirdə açılış nitqi ilə çıxış edən **RDM-in baş həkimi Könül Xəlilova** müasir müstəqil Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyevin Azərbaycan səhiyyəsindəki misilsiz xidmətlərindən danışıb. Bildirib ki, Azərbaycan tarixinin 1960-cı illərin sonundan başlayaraq XXI əsrə adlayan 30 ildən artıq bir dövrü görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Həm Respublika birinci dəfə rəhbərlik etdiyi illərdə, həm də müstəqil Azərbaycanın Prezidenti kimi fəaliyyətində Ulu Öndər Vətənimizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişə xidmət edib, onun tərəqqisi üçün var qüvvəsi ilə çalışıb.

Qeyd olunub ki, Heydər Əliyev üçün ən vacib sahələrdən biri də məhz insanların sağlamlığı, səhiyyənin və tibb elminin inkişafı, savadlı, bilikli, əsl peşəkar həkim kadrlarının hazırlanması olub. Həyata keçirilən tədbirlər kompleksinin əsas istiqamətlərindən biri mövcud səhiyyə ocaqlarının abadlaşdırılması, yeni tibb müəssisələrinin tikilməsi idi. Bu səhiyyə müəssisələri arasında Uroloji Kliniki Xəstəxana, Neyrocərrahiyyə, Toksikologiya, Yanıq mərkəzləri, elmi-tədqiqat institutları, onlarla poliklinika və digər tibb ocaqları var idi.

Baş həkim vurğulayıb ki, Ümummilli Liderin sosialyönümlü siyasi kursu, o cümlədən səhiyyə sahəsində siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir: «Dahi Heydər Əliyevin qoyduğu bünövrəyə söykənib, onun yolunu ləyaqətlə davam etdirən İlham Əliyev Azərbaycan vətəndaşlarının sağlamlığını prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayır».

Sonra Ulu Öndərə həsr edilmiş videoçarx nümayiş olunub.

Tədbirdə Azərbaycan səhiyyəsinin tarixindəki nailiyyətlər, müasir səhiyyədə müalicə prinsipləri və digər mövzularda həkim-mütəxəssislərin məruzələri dinlənilib. Professor Ahmet Memişin «İnvaziv radiologiyanın gələcək perspektivləri», tibb elmləri doktoru Vüqar Əliyevin «Serebral anevrizmalarin multimodal cərrahi müalicəsi», tibb üzrə fəlsəfə doktoru Şahin Xəlilovun «Sol ana koronar arteriyaya intervension müdaxilələr», uzman həkim Anar Əmrahın «Re-Do xəstədə döyünən ürəkdə minimal-invaziv mitral qapaq təmiri» və digər məruzələr maraqla qarşılanıb. Mövzular ətrafında müzakirələr aparılıb.





2024
"HB Co LTD" şirkəti
Azərbaycan xalqını
Dünya Azərbaycanlılarının
Həmrəylik Günü və
Yeni il bayramı münasibətilə
səmimi qəlbdən
təbrik edir.
HB Co LTD
Sağlam gələcək -
bizimlə gələcək!


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribyutoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az